

POLİS

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

www.pq.mia.gov.az

polisazerbaycan

19 noyabr 2026-cı il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 44 (3807)

Azərbaycanın diplomatik yüksəlişi



Ölkəmizin qlobal siyasi məkanda nüfuzu genişlənir

Noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində keçirilən "Avropa Siyasi Birliyi"nin (ASB) 9-cu Zirvə toplantısı Azərbaycanın Avropa siyasi məkanında artan nüfuzunu nümayiş etdirdi. Prezident İlham Əliyevin sammit çərçivəsində keçirdiyi yüksək səviyyəli görüşlər, Böyük Britaniya ilə strateji tərəfdaşlığın rəsmiləşdirilməsi və Azərbaycan-Ermənistan sülh gündəliyinin müzakirəsi ölkəmizin beynəlxalq əlaqələrinin genişləndiyini göstərdi.

Əlliyə yaxın dövlət və hökumət başçısının qatıldığı sammit Azərbaycanın çoxşaxəli xarici siyasətinin təqdimatı baxımından da diqqət çəkdi. Avropanın enerji təhlükəsizliyi, alternativ nəqliyyat marşrutları və regional sabitliklə bağlı maraqları Azərbaycanın iqtisadi və siyasi prioritetləri ilə uzlaşır. Ölkəmiz artıq enerji təchizatçısı və tranzit məkanı olmaqla kifayətlənmir, təhlükəsizlik və regional əməkdaşlıq məsələlərində də fəal tərəfdaş kimi çıxış edir. Prezident İlham Əliyevin Böyük Britaniya, Avropa İttifaqı, Ukrayna, Moldova, Yunanıstan, Bolqarıstan, Çexiya və digər tərəfdaşların rəhbərləri ilə onların təşəbbüsü əsasında keçirdiyi görüşlər bunu təsdiqlədi.

Sammitin diqqətçəkən nəticəsi Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin qəbul edilməsi oldu. Prezident İlham Əliyevlə Baş nazir Endi Börnhamın görüşündə mübadilə olunan sənəd ikitərəfli münasibətlərin inkişafına yeni siyasi çərçivə qazandırdı. Azərbaycanın böyük avropalı investorlarından olan Böyük Britaniya ilə 30 ildən artıq davam edən enerji əməkdaşlığı bu tərəfdaşlığın iqtisadi əsasını təşkil edir. Yeni bəyannamə isə əlaqələrin digər sahələr üzrə genişlənməsinə imkan yaradır.

Azərbaycanın Avropa ilə əməkdaşlığında nəqliyyat və logistika bağlantıları da xüsusi yer tutur. Qlobal ticarət marşrutlarının dəyişdiyi şəraitdə Orta Dəhlizin strateji dəyəri artır. Çin və Mərkəzi Asiyanı Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya birləşdirən marşrut ölkəmizin tranzit potensialını gücləndirir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmir yolu infrastrukturu və regional layihələr Azərbaycanın Avrasiya məkanındakı mövqeyini möhkəmləndirir.

Prezidentin səfərini şərh edən mütəxəssislərin fikrincə, Azərbaycanın 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısına ev sahibliyi etməsi də ölkəmizə göstərilən beynəlxalq etimadın ifadəsidir. Bakıda Avropa liderlərinin iştirakı ilə təhlükəsizlik, enerji, nəqliyyat, innovasiya və regional əməkdaşlıq məsələlərinin müzakirəsi Azərbaycanın diplomatik imkanlarını genişləndirəcək.

İctimaiyyətlə birbaşa ünsiyyət

Vətəndaş məmnunluğu müraciətlərə operativ reaksiya verməklə təmin edilir

İnformasiya texnologiyalarının inkişafı cəmiyyətin gündəlik həyatında çox dəyişiklik edib. Vaxtilə hansısa məlumatı əldə etmək, müraciəti aidiyyəti quruma çatdırmaq, ortaya çıxan məsələyə aydınlıq gətirmək müəyyən vaxt tələb edirdisə, indi bunun üçün mobil telefon kifayət edir. Hazırda istənilən sosial media istifadəçisi hadisə barədə məlumat paylaşır, gördüyünə və eşitdiyinə münasibət bildirir, müəyyən məsələləri ictimai müzakirəyə çıxarır.

(Ardı 2-ci səhifədə)

Xəbərdarlıqlar niyə eşidilmir?

Piyada öz taleyini sürücüdən asılı etməli deyil

Yollarda sürücülər arasında sorğu keçirilsə, yəqin ki, ən çox gileyləndikləri hərəkət iştirakçılarından biri, bəlkə də birincisi piyadalar olar. Son vaxtlar skuter və moped idarə edənlərin sayının artması ilə yolda qəfil peyda olan təhlükələrin də çoxalması fonunda piyadalar hər halda ilk beşliyə daxildir. Yəni piyada və mikromobillik vasitələrini idarə edənlər hazırda sürücülərin, yumşaq desək, qorxduqları hərəkət iştirakçılarıdır.

(Ardı 3-cü səhifədə)

Bakı-Berlin əlaqələri güclənir

Prezident xarici işlər nazirini qəbul edib

Prezident İlham Əliyev noyabrın 17-də Almaniyanın xarici işlər naziri Yohan David Vadefulun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Prezident İlham Əliyevin iyulda Almaniyaya rəsmi səfəri və həmin vaxt imzalanmış strateji tərəfdaşlıq sənədləri xatırlanıb. Siyasi və iqtisadi əlaqələrin inkişafı, sərmayələr, enerji, nəqliyyat və logistika sahələrində əməkdaşlıq müzakirə edilib. Azərbaycan qazının Almaniyaya ixracı, Orta Dəhlizin imkanları və Avropa İttifaqı ilə münasibətlərin perspektivləri də diqqət mərkəzində olub.

Milli Dirçəliş Günü

Prezident və Birinci vitse-prezident əlamətdar gün münasibətilə paylaşım ediblər

Noyabrın 17-də Azərbaycanda Milli Dirçəliş Günü qeyd olunub. Xalqımızın azadlıq mübarizəsini və milli müstəqillik iradəsini təcəssüm etdirən bu tarixi gün münasibətilə Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın sosial şəbəkə hesablarında paylaşımlar edilib.

Strateji dostluq, mehriban qonşuluq

Münasibətlərin inkişafı məmnunluq doğurur

Prezident İlham Əliyev noyabrın 17-də Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvili ilə görüşüb.


Söhbət zamanı Azərbaycanla Gürcüstan arasında dostluq və mehriban qonşuluq münasibətlərinin inkişafından məmnunluq ifadə olunub. Dövlətimizin başçısının aprel ayında Gürcüstana səfərinin ikitərəfli əlaqələrə töhfəsi qeyd edilib. Birgə enerji və nəqliyyat layihələrinin regional rolu vurğulanıb, ticarət dövriyyəsinin artırılması, sərmayələrin və bağlantıların genişləndirilməsi imkanları nəzərdən keçirilib.

Sülh gündəliyi

Azərbaycan və Ermənistan liderləri görüşüblər

Prezident İlham Əliyev noyabrın 12-də Dublində "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb.

Liderlər iqtisadi və ticarət əlaqələrinin genişləndirilməsi, elektrik şəbəkələrinin birləşdirilməsi, transsərhəd su ehtiyatlarının idarə olunması və ekoloji əməkdaşlıq məsələlərinə toxunublar. Tərəflər regionda sülhün və sabitliyin möhkəmləndirilməsi üçün dialoqun davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Ağıllı texnologiya, şəffaf xidmət
2


Bilik öyrədir, təcrübə peşəkar yetişdirir
3


Süni intellektlə saxtakarlıq
3


Gizli şəbəkələr, açıq təhlükə
4


Respublika xəbərləri

Əhali işlə təmin olunur

Azərbaycanda bu ilin ilk 10 ayı ərzində 164 mindən çox şəxs işlə təmin edilib. Həmin dövrdə 14 mindən çox vətəndaş peşə hazırlığına, 6600-dən çox şəxs isə özünüməşğulluq proqramına cəlb olunub.

Gələn ilin dövlət büdcəsi

Milli Məclis "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsini birinci oxunuşda qəbul edib. Layihəyə əsasən, gələn il dövlət büdcəsinin gəlirləri 39,3 milyard manat, xərcləri isə 42,4 milyard manat proqnozlaşdırılır. Dövlət büdcəsinin gəlirlərində əsas pay qeyri-neft sektoruna məxsus olacaq. Belə ki, daxilolmaların 23,8 milyard manatının və ya 60,6 faizinin qeyri-neft, 15,5 milyard manatının və ya 39,4 faizinin isə neft-qaz sektoru hesabına formalaşacağı gözlənilir.

Tibbi sığorta sistemi rəqəmsallaşdırılır

Azərbaycanda icbari tibbi sığorta sisteminin tam rəqəmsallaşdırılması və sığortaolunanların vahid elektron reyestrinin yaradılması nəzərdə tutulur. Həmçinin tibbi ekspertiza prosesinin avtomatlaşdırılması və tibbi xidmətlərin keyfiyyətə əsaslanan maliyyələşmə modelinin qurulması planlaşdırılır.

Əhalinin gəlirləri və əməkhaqları artıb

2026-cı ilin yanvar-oktyabr aylarında Azərbaycanda əhalinin nominal gəlirləri 81 milyard 10,7 milyon manata çatıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 9,9 faiz çoxdur. Yanvar-sentyabr aylarında ölkədə orta aylıq nominal əməkhaqqı 1 172,7 manat təşkil edib və illik müqayisədə 7,8 faiz artıb.

Qarabağa növbəti köç

Xocavənd şəhərinə 36 ailə, Quzeyxırman kəndinə 12 ailə, Cəbrayıl rayonunun Soltanlı kəndinə 17 ailə, Zəngilan rayonunun Cahangirbəyli kəndinə isə 20 ailə köçürülüb. Köçürülən sakinlərə yeni mənzillərin açarları təqdim olunub.

Minalardan təmizləmə işləri davam edir

İşğaldan azad edilmiş ərazilərdə ötən həftə 33 tank əleyhinə mina, 152 piyada əleyhinə mina və 1343 digər partlayıcı hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Ümumilikdə 1459,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

Kəlbəcərdə televiziya yayımı bərpa olunub

Kəlbəcər rayonunda yerləşən 2-ci Milli Radio-Televiziya Yayım Stansiyasının fəaliyyəti bərpa edilib. Bununla da, işğaldan azad edilmiş ərazilərdə bərpa olunan stansiyaların sayı 13-ə çatıb.

"Böyük Qayıdış" layihələri

Bu ilin yanvar-sentyabr aylarında "Böyük Qayıdış" proqramı üzrə 383 layihənin icrasına 1 milyard 761,4 milyon manat xərclənib. Layihələrin 97-si nəqliyyat, 201-i sosial, 38-i su təsərrüfatı və meliorasiya, 11-i energetika və sənaye, 19-u müdafiə və hüquq-mühafizə, 17-si isə digər sahələri əhatə edib.

Müavinətlərlə bağlı yeni təklif

Azərbaycanda uşağın anadan olmasına görə ödənilən müavinətin 600 manatdan 1 500 manata qaldırılması nəzərdə tutulur. Həmçinin dəfn üçün ödənilən müavinətin pensiyaçılar üzrə 946 manatdan 1 200 manata, sığortaolunanlar üzrə isə 590 manatdan 700 manata çatdırılması təklif edilir. Bu dəyişikliklər "Dövlət Sosial Müdafiə Fondunun 2027-ci il büdcəsi haqqında" qanun layihəsində əksini tapıb və Milli Məclisdə birinci oxunuşda qəbul edilib.

Sosial müavinət alanların sayı açıqlanıb

Bu ilin oktyabr ayında yaşa görə aylıq sosial müavinət alanların sayı 180 min nəfəri ötüb. Onların 40,8 faizini kişilər, 59,2 faizini isə qadınlar təşkil edib.

Azərbaycan universitetlərinin sərgisi keçirilib

Gürcüstanın paytaxtı Tbilisi şəhərində Azərbaycan universitetlərinin təhsil sərgisi təşkil olunub. Sərgidə 10-dan çox ali təhsil müəssisəsi təmsil olunub. İştirakçılara Azərbaycan universitetlərinin tədris proqramları, ixtisaslar, qəbul qaydaları, təhsil və təqaüd imkanları barədə məlumat verilib.

İctimaiyyətlə birbaşa ünsiyyət

Vətəndaş məmnunluğu müraciətlərə operativ reaksiya verməklə təmin edilir

(Əvvəli 1-ci səhifədə)

İndiki informasiya mühitində vətəndaş artıq onu maraqlandıran məsələ ilə bağlı dövlət qurumundan günlərlə məlumat gözləmir. Müraciətinin vaxtında qəbul edilməsi, sualına aydın cavab verilməsi və qarşılaşdığı problemin aidiyyəti üzrə operativ araşdırılması istənilir. Gündəlik xidməti vətəndaşlarla birbaşa təmas üzərində qurulan polis əməkdaşları üçün də belə müraciətlərə həssas yanaşmaq Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən əsas tələb kimi müəyyən edilib.

►Rəsmi məlumat, etibarlı mənbə

İctimaiyyətin məlumatlandırılmasından söz düşəndə, təbii ki, ilk növbədə polisin ənənəvi media ilə əlaqələrini yada salmaq lazım gəlir. Nazirliyin etibarlı xəbər mənbəyi kimi çıxış edən, çoxmilyonluq auditoriyaya malik rəsmi sosial şəbəkə hesablarında gün ərzində onlarla informasiya yayımlanır. Cinayətkarlıqla mübarizənin nəticələri, ictimai təhlükəsizliyin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər, vətəndaşları maraqlandıran məsələlər barədə məlumatlar mütəmadi olaraq açıqlanır. Media qurumlarının istənilən məlumatı dəqiqləşdirmək, sorğu ünvanlayıb lazımi cavabı almaq imkanı da var. Son illərdə media təmsilçiləri arasında keçirilən sorğularda Daxili İşlər Nazirliyinin media ilə əlaqələrinin yüksək qiymətləndirilməsi polisin bu hesabatlılığından irəli gəlir. Bu əməkdaşlığın ictimai faydası özünü həm cəmiyyətin informasiya tələbatının ödənilməsində, həm də məlumatların rəsmi mənbədən vaxtında verilməsi ilə əsassız ehtimalların və yanlış təsəvvürlərin yayılmasının qarşısının alınmasında çox aydın şəkildə göstərir.

"Bu ilin 9 ayı ərzində Nazirliyin sosial şəbəkə səhifələrinin mesaj bölməsinə 33 min 389 müraciət daxil olub və onların hər biri cavablandırılıb. Cinayətkarlıqla mübarizədən tutmuş qanunvericiliyin izahı, polis əməkdaşlarının xidməti, ictimai təhlükəsizlik, vakansiyalar və xidmətə qəbul, istintaq və təhqiqat qurumlarının fəaliyyəti ilə bağlı müxtəlif məzmunlu müraciətlərin diqqətlə araşdırılması, heç şübhəsiz, polisə ictimai etimadı daha da artırır."

►Hər bir müraciətə həssas münasibət var

Nazirliyin instaqram, feysbuk, teleqram və yutub sosial şəbəkələrində yaradılmış rəsmi səhifələri geniş auditoriyaya məlumat çatdırmaqla yanaşı, vətəndaşların birbaşa müraciət edə bildiyi ünsiyyət vasitəsi kimi də istifadə olunur. Məsələn, bu ilin 9 ayı ərzində Nazirliyin sosial şəbəkə səhifələrinin mesaj bölməsinə 33 min 389 müraciət daxil olub və onların hər biri cavablandırılıb. Cinayətkarlıqla mübarizədən tutmuş qanunvericiliyin izahı, polis əməkdaşlarının xidməti, ictimai təhlükəsizlik, vakansiyalar və xidmətə qəbul, istintaq və təhqiqat qurumlarının fəaliyyəti ilə bağlı müxtəlif məzmunlu müraciətlərin diqqətlə araşdırılması, heç şübhəsiz, polisə ictimai etimadı daha da artırır.

Təsadüfi deyil ki, Nazirliyin sosial media səhifələrinə daxil olan mesajların bir qismi polisə ünvanlanan təşəkkür mesajları, göstərilən xidmətdən razılıq ifadə edən fikirlərdir. Bu təşəkkür mesajları vətəndaşın polisin xidməti ilə bağlı təəssüratıdır, ictimai rəy göstəricisidir. Probleminə diqqətlə yanaşıldığını görən vətəndaş üçün polislə ünsiyyət daha anlaşılan və əlçatan olub. Təbii ki, bu münasibətlərin yüksək səviyyədə qorunub saxlanılması hər bir müraciətə eyni məsuliyyətlə yanaşıldığını da təsdiqləyir.

Onu da vurğulamalıyıq ki, sosial şəbəkələr vasitəsilə aparılan iş daxili işlər orqanlarında vətəndaş müraciətlərinə baxılması sahəsində görülən fəaliyyətin yalnız müəyyən hissəsini əhatə edir. Qanunvericiliklə nəzərdə tutulmuş qaydada qəbul edilən ərizələr, şikayətlər, şəxsi qəbullar və digər müraciət formaları üzrə işlər də davam etdirilir. Rəsmi media hesabları isə bu imkanları tamamlayaraq vətəndaşın polisə müraciət etməsi üçün əlavə, daha çevik ünsiyyət kanalı yaradıb.

Vətəndaş məmnunluğu barədə danışanda elə bu əlçatanlıq imkanlarını da qeyd etməliyik. Vətəndaş müraciətinin qəbul edildiyini, diqqətlə araşdırıldığını və ona aydın cavab verildiyini görür. Polisin ictimaiyyətə açıqlığı da bu imkanlardan gündəlik xidmətdə necə istifadə olunması ilə öz təsdiqini tapır.

Ağıllı texnologiya, şəffaf xidmət

İnformasiya sistemlərindən səmərəli istifadə dövrün tələbidir


Polis üçün operativlik hər zaman əsas meyar olub. Ancaq müasir dövrdə hadisəyə çevik reaksiya vermək qədər onun baş-vermə şəraitini dəqiq müəyyənləşdirmək, faktları obyektiv qiymətləndirmək və hüquqpozmaların qarşısını vaxtında almaq da xüsusi əhəmiyyət daşıyır. Bu tələblər xidmətdə müasir texnologiyaların tətbiqini zəruri edir. Videomüşahidə sistemləri, elektron məlumat bazaları və intellektual təhlil vasitələri polisin gündəlik xidmətində daha geniş imkan yaradır, vətəndaşlara göstərilən xidmətin keyfiyyətinin yüksəldilməsinə də şərait yaradır.

Burada elə diqqət çəkən əsas məqamlardan biri texnologiyanın polis və vətəndaş münasibətlərində obyektivliyin təmin edilməsinə verdiyi töhfədir. Bütün dünyada xidməti fəaliyyət zamanı polisin texniki vasitələrlə apardığı qeydlər mübahisəli halların araşdırılmasında sübut mənbəyi sayılır. Məsələn, vətəndaşla polis əməkdaşı arasında yaranmış anlaşılmazlıq zamanı hadisənin videogörüntüləri tərəflərin hərəkətlərinə obyektiv qiymət verilməsinə yardımçı olur. Bu, vətəndaşların hüquqlarının qorunması, polis əməkdaşlarının fəaliyyətinin düzgün qiymətləndirilməsi və əsassız iddiaların aydınlaşdırılması baxımından imkan yaradır. Qərarlar konkret faktlara əsaslandığına görə xidmətə ictimai etimad da möhkəmlənir.

DİN informasiya sistemlərinin imkanlarından səmərəli istifadəni diqqət mərkəzində saxlayır

Müasir texnoloji inkişafı nəzərə alan Daxili İşlər Nazirliyi yeniliklərin tətbiqinə və idarəetmədə rəqəmsallaşmanın genişləndirilməsinə xüsusi diqqət yetirir. Ötən kollegiya iclasında da DİN rəhbərliyi tərəfindən bu məsələyə toxunularaq informasiya sistemlərinin imkanlarından səmərəli istifadənin, idarəetmə proseslərinin təkmilləşdirilməsinin, operativliyin və xidmətin keyfiyyətinin artırılmasının vacibliyi vurğulanıb.

Müasir texnologiyaların praktik əhəmiyyəti xüsusilə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsində aydın görünür. Avtomatlaşdırılmış müşahidə sistemləri və müasir kameralar yol hərəkəti qaydalarının pozulması hallarının aşkarlanmasına, nəqliyyat axınının izlənilməsinə və təhlükəli vəziyyətlərin vaxtında müəyyənləşdirilməsinə imkan verir. Bu vasitələrlə



əldə olunan məlumatlar yol polisinin fəaliyyətinin daha səmərəli təşkilinə, mövcud vəziyyətin operativ qiymətləndirilməsinə və zəruri tədbirlərin görülməsinə kömək edir. Eyni zamanda, texniki qeydlərin mövcudluğu yol hərəkəti iştirakçıları ilə bağlı mübahisəli halların araşdırılmasında xüsusi yer tutur. Hüquq pozuntusu texnoloji avadanlıqların köməyi ilə aşkarlandıqda və qanunauyğun tədbirlər görüldükdə ilk növbədə sürücülərdə xidmətin şəffaflığına inam yaranır. Hətta qanun pozuntusuna yol verdildiyi halda yol polisi əməkdaşı ilə hadisəni mübahisələndirib cərimə cəzasından yayınmağa çalışan sürücülərin qarşısına vizual sübut qoyula bilir. Bununla da polislə vətəndaş arasında mübahisə halları aradan qalxır.

Bu baxımdan oktyabrın 14-dən 16-dək Bakı Ekspo Mərkəzində keçirilən və Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin iştirak etdiyi "Road & Traffic 2026" 14-cü Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat Sərgisi də diqqətəlayiq idi. Sərgidə BDYPİ tərəfindən yol hərəkətinə nəzarət sahəsində istifadə olunan müasir texniki avadanlıqlar, nəzarət sistemləri və innovativ texnologiyalar ziyarətçilərə təqdim edilib. Bununla ictimaiyyət yol hərəkəti təhlükəsizliyinin təmin olunmasında tətbiq edilən texniki imkanlar və bu sahədə görülən işlərlə yaxından tanış olmaq imkanı qazanıb. Belə təqdimatlar yol polisinin istifadəsində olan müasir nəzarət vasitələrinin imkanları barədə ictimai məlumatlılığı da artırır.

Müasir texnologiya şəffaf xidmətə töhfə verir

Texnoloji inkişafın hazırkı mərhələsində süni intellekt sistemlərinin polisə hansı imkanlar yarada biləcəyi də aktual məsələdir. Mütəxəssislər xüsusilə süni intellektin vətəndaş müraciətlərinin idarə olunmasında tətbiqi perspektivlərinə diqqət yetirirlər.

Məsələn, onlar hesab edirlər ki, elektron sistemlərə daxil olan müraciətlərin məzmununa görə avtomatik qruplaşdırılması, təkrar şikayətlərin müəyyənləşdirilməsi və aidiyyəti üzrə yönləndirilməsi araşdırma prosesinin daha səmərəli təşkilinə kömək edə bilər. Müxtəlif ərazilərdən daxil olan oxşar müraciətlərin təhlili isə müəyyən problemlərin hansı səbəblərdən yarandığını, hansı halların daha çox təkrarlandığını və qabaqlayıcı tədbirlərə harada ehtiyac olduğunu müəyyənləşdirmək üçün əlavə məlumat verər. Bu imkanlardan istifadə polisin fəaliyyətində profilaktik tədbirlərin planlaşdırılmasına da müsbət təsir göstərə bilər.

Təbii ki, süni intellektin imkanları barədə danışarkən hadisəyə hüquqi qiymət verilməsi, sübutların qiymətləndirilməsi və müvafiq qərarların qəbul edilməsi kimi insan müdaxiləsi tələb edən amillər nəzərdən qaçmamalıdır. Bu mənada polis əməkdaşlarının müasir texnologiyalarla işləmək bacarıqlarının inkişaf etdirilməsi aktualdır. Texniki avadanlıq nə qədər mükəmməl olsa da, onun səmərəsi necə istifadə olunacağından asılıdır. Buna görə də rəqəmsal imkanların genişləndirilməsi polis əməkdaşlarının peşə hazırlığının artırılmasını da zəruri edir və bu məsələ də diqqət mərkəzində saxlanılır.

Bütün bunlar göstərir ki, müasir texnologiyaların polisin gündəlik xidmətində tətbiq edilməsi ehtiyacı onların verdiyi və yaxud verə biləcəyi effektiv nəticələrlə birbaşa bağlıdır. Müasir dövr innovativ yeniliklər tələb edir və bu çağırışa adekvat tədbirlər görmək gərəkdir. Yəni hadisələrin daha dəqiq araşdırılması, hüquqpozmaların vaxtında aşkarlanması, vətəndaş müraciətlərinə operativ baxılması və qərarların faktlara əsaslanması yenilklərin tətbiqini şərtləndirir. Xidmətdə şəffaflığı və vətəndaş məmnunluğunun tənin edilməsini də elə bu meyarlar müəyyən edir.

Bilik öyrədir, təcrübə peşəkar yetişdirir

Polis Akademiyasında təcrübəli mütəxəssislərin dərsləri davam edir

Polis Akademiyasında kursantların peşəkar dünyagörüşünün genişləndirilməsi, nəzəri biliklərinin real həyat və xidmət təcrübəsi ilə əlaqələndirilməsi məqsədilə tədris prosesinə müxtəlif sahələr üzrə tanınmış mütəxəssislər cəlb olunublar.



İnteraktiv dərslərdə Slavyan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor Şirxan Səlimov "Cənubi Azərbaycan XIX əsrin 30-cu illəri – XX əsrin əvvəllərində", Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü, vəkil Samir İsayev "Cinayətdə iştirakçılıq", Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin aparıcı eksperti Samir Qədirov isə "Məhkəmə-ballistik, məhkəmə-partlayış, texniki, soyuq və digər növ silah ekspertizası" mövzularında mühazirələrlə çıxış ediblər.

Mütəxəssislər mövzuları yalnız nəzəri biliklərlə məhdudlaşdırmayaraq, peşə fəaliyyətləri zamanı qarşılaşdıqları real hadisələr, praktiki nümunələr və təcrübələri əsasında izah ediblər. Bu yanaşma kursantlara hüquqi məsələləri daha dərindən anlamaq, hadisələrə peşəkar yanaşma formalaşdırmaq və gələcək xidmət fəaliyyətləri üçün zəruri bilik və bacarıqlar əldə etmək imkanı yaradır.

Təbiətin keşiyində

DİN və ETSN birgə əməliyyat keçirib

Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Dövlət Ekoloji Təhlükəsizlik Xidməti ilə birgə ölkə ərazisində meşə massivlərində ağacların qanunsuz kəsilməsi və emalı ilə məşğul olan şəxslərin müəyyən edilərək saxlanılması istiqamətində əməliyyat keçirib.

Baş İdarəyə Şəki rayonunun Kiş kəndi ərazisində qiymətli ağac növlərinin qanunsuz olaraq kütləvi şəkildə kəsilməsi barədə əməliyyat məlumatı daxil olub. Həyata keçirilən tədbirlərlə ağacları qanunsuz kəsməkdə şübhəli bilinən rayon sakinləri Hümmət Feyzullayev, Nüyvər Babayev, Sərxan Hümmətov, Taleh Abdullayev, Rüstəm Məhərrəmov və Qəmlo Nəsirli müəyyən edilərək saxlanılıblar.

Araşdırmalarla məlum olub ki, həmin şəxslər ağacları qanunsuz kəsərək emal etdikdən sonra satışını həyata keçiriblər. Əraziyə baxış zamanı saxlanılan şəxslər tərəfindən kəsilən 100-dən artıq fıstıq ağacının kökləri aşkarlanıb. Ekspertlərin rəyinə əsasən, qanunsuz olaraq kəsilən ağacların bəzilərinin 100–150 yaşında olduğu müəyyən edilib.

Qanunsuz ağackəsmə hallarının qarşısının alınması, belə faktların vaxtında aşkarlanması və digər təqsirli şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilmələri istiqamətində araşdırmalar və nəzarət tədbirləri davam etdirilir.

Vətəndaşların diqqətinə bir daha çatdırılır ki, ağacların və digər yaşıllıqların qanunsuz kəsilməsi, məhv edilməsi və zədələnməsi yolverilməzdir. Bu cür əməllər təbiətə və ekoloji tarazlığa zərər vurmaqla yanaşı, qanunvericiliklə nəzərdə tutulmuş hallarda cinayət məsuliyyətinə səbəb ola bilər.

Süni intellektlə saxtakarlıq

KMBİ tələbələrdən pul tələb edəni saxlayıb

Daxili İşlər Nazirliyi (DİN) Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsinə (KMBİ) müxtəlif ali təhsil müəssisələrində təhsil alan tələbələrin foto və video görüntülərinin montaj edilərək sosial şəbəkələrdə yayılması, həmin görüntülərin silinməsi müqabilində onlardan pul tələb olunması ilə bağlı müraciətlər daxil olub.

Baş İdarə tərəfindən keçirilən əməliyyat-texniki tədbirlərlə bu əməlləri törədən 25 yaşlı İ. Nəhmədov saxlanılıb. Araşdırmalarla müəyyən edilib ki, həmin şəxs "TikTok" və "Instagram" sosial şəbəkələrindən tələbələrə məxsus foto və video görüntüləri əldə edərək süni intellekt proqramları vasitəsilə montaj edib. O, görüntülərə təhqiramiz və rüsvayedici ifadələr əlavə edərək yaratdığı saxta sosial şəbəkə hesablarında yayıb. Daha sonra həmin materialların silinməsi üçün tələbələrdən pul tələb edib.

Faktla bağlı KMBİ-də cinayət işi başlanılıb.

Qeyd edək ki, vətəndaşlara məxsus foto və video görüntülərdən süni intellekt texnologiyaları vasitəsilə icazəsiz istifadə edilərək saxta, təhqiramiz və rüsvayedici materialların hazırlanması, sosial şəbəkələrdə yayılması, eləcə də onların silinməsi müqabilində pul tələb olunması cinayət məsuliyyəti yaradır. Bu cür qanunsuz əməllərə yol verən şəxslər barəsində qanunvericiliyə uyğun olaraq ciddi hüquqi tədbirlər görülür.

Xəbərdarlıqlar niyə eşidilmir?

Piyada öz taleyini sürücüdən asılı etməli deyil



(Əvvəli 1-ci səhifədə)

Bu günlərdə yol polisi piyadaların vurulması ilə nəticələnən qəzalara dair statistika paylaşdı. Həmin məlumata görə, cari ilin 10 ayı ərzində respublika üzrə piyadaların vurulması ilə nəticələnən 384 yol-nəqliyyat hadisəsi qeydə alınıb. Təsəvvür edin ki, bu göstərici ümumi yol qəzalarının 41,1 faizini təşkil edir. Təkcə noyabrın 12-də, yəni bir gün ərzində Xəzər, Qaradağ və Ağsu rayonlarının ərazisində sutkanın qaranlıq vaxtında baş verən üç ayrı qəzada üç piyada həyatını itirib.

Ümumi qəzaların 40 faizindən artığının piyadaların vurulması ilə bağlı olması istər-istəməz suallar doğurur. Əlbəttə, bu göstərici həmin hadisələrin hamısında piyadaların təqsirli olduğunu göstərmir. Ancaq piyadaların yol hərəkətində təhlükəsiz davranışı ilə bağlı narahatlığı da aradan qaldırmır. Bu qədər xəbərdarlığa baxmayaraq, piyadalar niyə hələ də özlərini yolda qorumurlar, niyə özlərini təhlükəyə atırlar, daha doğrusu, maşının altına atırlar? Axı həm yol polisi, həm də ümumiyyətlə, polisin ayrı-ayrı qurumları tərəfindən mütəmadi profilaktik tədbirlər həyata keçirilir, piyadalara təhlükəsizlik qaydaları izah olunur, yol-nəqliyyat hadisələrinin ağır nəticələri barədə ictimaiyyət gündəlik, hətta az qala saatbasaat məlumatlandırılır. Bunun müqabilində piyadaların iştirakı ilə baş verən qəzalar niyə hələ də narahatlıq doğuran həddə olmalıdır?!

Yol hərəkəti qaydalarının sadə tələbləri insanların böyük əksəriyyətinə məlum olduğu halda, nədən hələ də piyada keçidindən istifadənin, işıqforun siqnallarına əməl etməyin, hərəkətdə olan nəqliyyat vasitəsinin qarşısına çıxmamağın vacibliyi xüsusi izaha ehtiyac duysun ki?! Belə çıxmırmı ki, təhlükəsizlik qaydalarını bilmək heç də onlara əməl ediləcəyinə təminat vermir və daha sərt cəzalar lazımdır?

Çox qəribədir, insanlar başqasının iştirakı ilə baş vermiş qəzanın ağırlığını anlayır, ölüm xəbərini eşidəndə təəssüflənirlər də, ancaq eyni təhlükənin şəxsi həyatlarına aid olduğunu heç də həmişə qəbul etmirlər. Sanki bəziləri hadisədən nəticə çıxarmır, ibrət götürmür. Qəza haqqında məlumat eşidilir, amma ondan çıxarılan nəticə yolda gündəlik davranışda öz əksini tapmır. Bəlkə, kimsə bir neçə dəfə qadağan olunmuş yerdən yolu keçəndə avtomobillərin arasından salamat çıxır və həmin hərəkətin təhlükəsini əvvəlki qədər ciddi qəbul etmir. Beləcə, təkrar olunan qayda pozuntusu onun üçün tədricən adi vərdiş olur. Ancaq acı təcrübələr sübut edir ki, dəfələrlə təhlükədən yayınan insanın həmişə bəxti gətirməyə də bilər. Ona növbəti dəfə də təhlükədən qurtulacağına kim zəmanət verə bilər ki?

Uzun sözün qısası, piyada nəhayət, qəbul etməlidir ki, yol hərəkətində məsuliyyətin qarşı tərəfdən, yəni sürücüdən gözlənilməsi ən yaxşı halda ağır bədən xəsarətləri almaq deməkdir. Yolda sürücünün diqqətli olmalı olduğunu əsas götürən piyada öz hərəkətinə kifayət qədər nəzarət etmirsə, onun taleyinin yol polisinin piyadaların vurulması ilə nəticələnən hadisələrə dair statistik məlumatlarında əks olunması demək olar ki, qaçılmazdır. Bəli, sürücünün piyadaya yol vermək və qəzanın qarşısını almaq vəzifəsi var, ancaq bu, piyadanın təhlükəsizlik qaydalarına əməl etmək məsuliyyətini aradan qaldırmır. Yol hərəkətində piyadanın da qanunla müəyyən edilmiş vəzifələri var və qeyd etdiyimiz kimi, bunlar heç də anlaşılmaz vəzifələr deyil, ən başında da sadəcə yol keçərkən piyada keçidlərindən istifadə etmək gəlir.

Qeyd etdiyimiz kimi, yol polisi xidməti vəzifəsinə uyğun olaraq yol hərəkətinin təhlükəsizliyi ilə bağlı mütəmadi xəbərdarlıqlar edir, nəzarət və profilaktik tədbirlər həyata keçirir, qaydaların tələblərini hərəkət iştirakçılarının diqqətinə çatdırır. Ancaq nəzərə almaq lazımdır ki, bütün bunların nəticəsi hərəkət iştirakçılarının, xüsusən piyadaların həmin xəbərdarlıqlara nə dərəcədə əməl etməsindən asılıdır. Təhlükəni görə-görə risk etmək vərdişi dəyişmədikcə, görülən tədbirlərə baxmayaraq, təəssüf ki, piyadaların vurulması ilə bağlı qəza xəbərləri gündəmdən düşməyəcək.

R.Mehtiyev

Operativ müdaxilə

Polislər səhhəti pisləşən əcnəbi sürücünün köməyinə çatıblar

Bakı-Qazax avtomagistralı üzərində yerləşən stasionar postda xidmət aparan YPX Alayının əməkdaşları posta yaxınlaşan yük avtomobilinin asta sürətlə və ziqzaqvari hərəkətini müşahidə edib. Avtomobil nəzarətə götürülərək saxlanılıb.

Sükan arxasında olan əcnəbi sürücü ilkin ifadəsində səhhəti kəskin pisləşdiyi üçün yıxıldığını və hal-hazırlıqdan avtomobili idarə etmək iqtidarında olmadığını bildirib.

Dərhal sürücüyə ilkin tibbi yardım göstərilib və əraziyə təcili tibbi yardım briqadası çağırılıb.

Səhhəti normallaşan sürücü düşdüyü çətin vəziyyətdə köməyinə çatan polis əməkdaşlarına səmimi təşəkkürünü bildirib.

Quldurluq planı həbslə bitdi

Pulu bölüşmüşdülər, cəzaya da şərikdirlər

Neftçala rayonunda ev sahibinə qarşı quldurluq edilməsi və 11000 manat pulun talanması barədə polisə məlumat daxil olub. Polisin keçirdiyi tədbirlərlə cinayət əməlini törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuş Q. Talıbov və N. Muxtarov saxlanılıblar.

Araşdırmalarla saxlanılan şəxslərin quldurluq faktını qabaqcadan planlaşdırdıqları və əldə etdikləri pul vəsaitini aralarında böldükləri müəyyən edilib.

Faktla bağlı cinayət işi başlanıb, həmin şəxslər barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Aşkara çıxarılan gizli talamalar

Polis oğurluqda şübhəli bilinən şəxsləri ifşa edib

Polisin keçirdiyi tədbirlərlə paytaxtın Sabunçu rayonu ərazisindəki mağazalardan birindən 2620 manat dəyərində qızıl-zinət əşyası oğurlayan mağazanın əməkdaşı Ş. Əsədova, Yasamal rayonu ərazisindəki evlərdən birindən 2000 manat dəyərində mobil telefon oğurlayan N. Rəsulov müəyyən olunaraq saxlanılıblar.

Qaradağda isə evdən 7050 manat dəyərində qızıl oğurlanıb. Oğurluq barədə daxil olan məlumatdan sonra polisin keçirdiyi tədbirlərlə əməli törədən F. Fərəcov müəyyən olunaraq saxlanılıb. Araşdırma zamanı onun rayon ərazisində digər evlərdən də elektrik kabelləri oğurladığı müəyyən edilib.


Sabunçuda da avtomobildən 6000 manat oğurlayan şəxs saxlanılıb.

Sabunçu rayonunun Ramana qəsəbəsində bir nəfər polisə müraciət edərək avtomobilindən 6000 manat nağd pul və bank kartlarının oğurlanmasını bildirib. Polisin keçirdiyi tədbirlərlə əməli törətməkdə şübhəli bilinən E. Ağamirzəyev müəyyən edilərək saxlanılıb. Araşdırmalarla məlum olub ki, saxlanılan şəxs nəqliyyat vasitəsinin qapısının açıq olmasından istifadə edərək həmin hadisəni törədib.

Hər bir faktla bağlı cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.

Şübhə təsdiqləndi

Özü narkotik istifadəçisi, nömrəsi isə saxta çıxdı



Baş Dövlət Yol Polisi İdarəsinin YPX Alayının əməkdaşları tərəfindən narkotik maddənin təsiri altında avtomobil idarə edən daha bir şəxs ifşa olunub. Belə ki, Şirvan şəhər sakini İ. Həsənovun idarə etdiyi "Chevrolet" markalı avtomobil cərimə borcu olduğu üçün Hacıqabul-Horadiz yolu üzərində yerləşən stasionar postda saxlanılıb. Araşdırma zamanı sürücülük hüququ məhdudlaşdırılan həmin şəxsin avtomobilin dövlət qeydiyyat nişanlarını saxtalaşdırması aşkarlanıb. Qeyri-adekvat hərəkətləri ilə şübhə doğuran sürücünün tibbi müayinədən keçməsi təmin edilib. Müayinə zamanı İ. Həsənovun narkotik maddə qəbul etməsi müəyyən olunub və o, bu əməlini etiraf edib.

Faktla bağlı toplanan materiallar baxılması üçün məhkəməyə göndərilib və İ. Həsənov inzibati qaydada həbs edilib.

Baş Dövlət Yol Polisi İdarəsi bir daha narkotik vasitələrin təsiri altında sükan arxasına əyləşərək digər hərəkət iştirakçılarının həyatını təhlükəyə atan şəxslərdən hüquqazidd əməllərə son qoymağı tələb edir və bu kimi hallara qarşı daha kəsərli tədbirlərin görüləcəyini bildirir.

Avropada Azərbaycan zəfəri

Polis polkovniki 13-cü dəfə çempion oldu



Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin İdman-təlim şöbəsinin rəisi polis polkovniki Eduard Məmmədov Şimali Makedoniya Respublikasının paytaxtı Skopye şəhərində keçirilən Avropa çempionatında iki qızıl medal qazanıb.

Noyabrın 7-dən 14-dək təşkil olunan kikboksinq üzrə WAKO Avropa çempionatında Azərbaycan təmsilçisi "Master Class" kateqoriyasında, 63 kiloqram çəki dərəcəsində iki versiya üzrə mübarizə aparıb.

İdmançımız "Light Contact" versiyasının finalında Portuqaliya təmsilçisini, "Kick Light" versiyasında isə Macarıstan və İtaliya təmsilçilərini məğlub edərək hər iki versiyada fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Beləliklə, Eduard Məmmədov karyerasında 13-cü dəfə Avropa çempionu tituluna sahib çıxıb. Çempionat DİN İdman Cəmiyyətinin digər uğurları ilə də yadda qalıb. Azərbaycan millisi yarışda ümumilikdə 4 qızıl, 6 gümüş və 6 bürünc medal qazanaraq 41 ölkə arasında 11-ci yeri tutub. Qazanılan dörd qızıl medaldan ikisi Eduard Məmmədovun, digər ikisi isə onun yetirmələrinin payına düşüb. Cəmiyyətin müəllimi, Əməkdar məşqçi Hakim Hacıyev isə çempionatın ən yaxşı məşqçisi seçilib.

Minifutbol çempionatı

DİN İdman Cəmiyyəti mövsümə qələbə ilə başlayıb



Minifutbol üzrə Azərbaycan çempionatının 2026/2027-ci il mövsümünə start verilib. Sayca səkkizinci dəfə təşkil olunan çempionatda Bakı və bölgələri təmsil edən 12 komanda mübarizə aparır.

Çempionatın iştirakçılarından olan Daxili İşlər Nazirliyinin İdman Cəmiyyəti yeni mövsümün ilk iki turunu məğlubiyyətsiz başa vurub. İlk turda "Aznur" komandası ilə qarşılaşan polis təmsilçiləri 5:5 hesablı heç-heçə ediblər. İkinci turda isə DİN İdman Cəmiyyəti "U-23" komandasını 7:3 hesabı ilə məğlub edərək mövsümdə ilk qələbəsini qazanıb.

Cüdoçularımızdan növbəti uğur

Komandamız birinci yer tutub

Noyabrın 14-də və 15-də böyüklər arasında cüdo üzrə Bakı şəhər çempionatı keçirilib. Yarışda 35 klub və idman cəmiyyətini təmsil edən 245 idmançı, o cümlədən 201 kişi və 44 qadın cüdoçu 14 çəki dərəcəsində medallar uğrunda mübarizə aparıb.

Çempionatda Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin təmsilçiləri 3 qızıl və 1 gümüş medal qazanıblar.

Qadınların mübarizəsində Elmira Mustafayeva 63 kiloqram, Mələk Bayramlı isə 70 kiloqram çəki dərəcəsində bütün rəqiblərini üstələyərək qızıl medala sahib olublar.

Kişilər arasında 60 kiloqram çəki dərəcəsində mübarizə aparan Amin İsmayılov çempion adını qazanıb. 100 kiloqram çəki dərəcəsində çıxış edən Eyvaz Nəsibli isə gümüş medala layiq görülüb.

Yarışın yekunlarına görə, İdman Cəmiyyəti Bakı şəhər çempionatını komanda hesabında birinci pillədə başa vurub.

Gizli şəbəkələr, açıq təhlükə

Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə yeni çağırışlar

Narkotik vasitələrin qanunsuz dövriyyəsi dünyanın bir çox ölkəsi üçün ciddi təhlükə olaraq qalır. Bu təhlükənin miqyası yalnız dövriyyədə olan narkotiklərin həcmi və ya saxlanılan şəxslərin sayı ilə ölçülmür. Söhbət həm də böyük maliyyə maraqlarından, mütəşəkkil cinayətkar şəbəkələrdən gedir



İllər keçdikcə bu cinayətkar fəaliyyətin forma və üsulları da dəyişir. Əvvəllər əsasən vasitəçilər və ənənəvi daşıma marşrutları üzərində qurulan əlaqələr indi rəqəmsal platformaları, şifrəli mesajlaşma tətbiqlərini və beynəlxalq logistika şəbəkələrini də əhatə edir. Müasir dövrdə narkotik vasitələrin qanunsuz satışı artıq yalnız küçələrdə və gizli məkanlarda həyata keçirilmir. Sosial şəbəkələrdə yaradılan saxta profillər, qapalı onlayn qruplar və müxtəlif mesajlaşma kanalları da bu cinayətkar fəaliyyətin vasitələrinə çevrilib. Araşdırmalar göstərir ki, qanunsuz maddələrin satışında açıq internet platformalarından tutmuş məhdud istifadəçi dairəsi olan rəqəmsal məkanlara qədər müxtəlif vasitələrdən istifadə edilir. Cinayətkarlar bu imkanlardan alıcılarla əlaqə yaratmaq, sifarişləri qəbul etmək və çatdırılmanı əlaqələndirmək məqsədilə yararlanırlar. Belə dəyişikliklər hüquq-mühafizə orqanlarının qarşısında yeni vəzifələr qoyur. Artıq narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə yalnız fiziki nəzarət, axtarış və saxlanılma tədbirləri ilə məhdudlaşmır. Cinayətkar əlaqələrin müəyyənləşdirilməsi, rəqəmsal sübutların təhlili, şübhəli maliyyə əməliyyatlarının araşdırılması və müxtəlif ölkələrdə fəaliyyət göstərən şəxslər arasında əlaqələrin üzə çıxarılması xüsusi əhəmiyyət daşıyır. Çünki bir ölkədə həyata keçirilən qanunsuz fəaliyyətin təşkilatçıları, maliyyə mənbələri və digər iştirakçıları dünyanın müxtəlif bölgələrində yerləşə bilər. Bu isə cinayətlərin araşdırılmasında beynəlxalq informasiya mübadiləsini və əlaqələndirilmiş əməliyyat tədbirlərini zəruri edir.

Cinayətkar şəbəkələrin daim dəyişdirdiyi istiqamətlərdən biri də narkotik vasitələrin daşınma üsullarıdır. Beynəlxalq ticarət və nəqliyyat imkanlarından sui-istifadə edilməsi, qanunsuz yüklərin kommersiya daşımaları arasında gizlədilməsi və alternativ marşrutların seçilməsi belə cinayətlərin aşkarlanmasını çətinləşdirir. Avropa İttifaqının 2025-ci il üzrə narkotiklərlə bağlı hesabatında dəniz limanlarının, yük konteynerlərinin və beynəlxalq təchizat zəncirlərinin narkotik qaçaqmalçılığında istifadə olunduğu diqqətə çatdırılır. Bu baxımdan aidiyyəti qurumlar arasında operativ əməkdaşlıq, məlumatların vaxtında ötürülməsi və birgə nəzarət mexanizmlərinin tətbiqi mühüm rol oynayır.

Narahatlıq doğuran digər məqam cinayətkar şəbəkələrin öz fəaliyyətlərinə gəncləri və yeniyetmələri cəlb etməyə çalışmasıdır. Bəzi hallarda onlara asan qazanc, qısa müddətdə yüksək gəlir vəd olunur, bəzən isə təcrübəsizliklərindən və məlumatsızlıqlarından istifadə edilir. Xüsusilə sosial şəbəkələr vasitəsilə qurulan tanışlıqlar, şübhəli iş elanları və cəlbedici maliyyə təklifləri bu baxımdan risk yaradır. İlk baxışdan sadə görünən tapşırıqların arxasında hansı qanunsuz fəaliyyətin dayandığını anlamayan gənclər sonradan cinayət məsuliyyəti ilə üzləşə bilərlər. Narkotiklərin qanunsuz dövriyyəsi ilə mübarizədə əsas istiqamətlərdən biri də cinayətkar fəaliyyətin iqtisadi dayaqlarının aşkar edilməsidir. Qanunsuz ticarətdən əldə olunan gəlirlər mütəşəkkil şəbəkələrin mövcudluğunu davam etdirməsinə, yeni əlaqələr qurmasına və təsir imkanlarını genişləndirməsinə şərait yaradır. Buna görə də yalnız narkotik vasitələri daşıyan və ya satan şəxslərin müəyyən edilməsi kifayət etmir. Cinayətkar fəaliyyətin təşkilatçılarının, maliyyələşdirmə mənbələrinin və qanunsuz gəlirlərin hərəkət istiqamətlərinin üzə çıxarılması da vacibdir. Maliyyə əlaqələrinin araşdırılması ayrı-ayrı cinayət epizodları arasında bağlılığı müəyyənləşdirməyə və daha geniş şəbəkələrin ifşasına imkan yaradır.

Bütün bunlar narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizənin kompleks yanaşma tələb etdiyini göstərir. Polis orqanlarının həyata keçirdiyi əməliyyat-axtarış tədbirləri, qanunsuz dövriyyə kanallarının aşkarlanması, cinayətkar qrupların əlaqələrinin araşdırılması və beynəlxalq əməkdaşlığın genişləndirilməsi bu fəaliyyətin mühüm istiqamətləridir. Görülən tədbirlərin nəticəsi isə yalnız dövriyyədən çıxarılan narkotik vasitələrin miqdarı ilə deyil, həm də cinayətkar şəbəkələrin fəaliyyətinin qarşısının alınması, onların maliyyə və təşkilati imkanlarının məhdudlaşdırılması ilə qiymətləndirilməlidir. Hüquq-mühafizə orqanlarının fəaliyyəti ilə yanaşı, cəmiyyətin də bu mübarizədə iştirakı vacibdir. Valideynlərin övladlarının virtual mühitdə qarşılaşdıqları təhlükələr barədə məlumatlı olması, gənclərin şübhəli qazanc təkliflərinə qarşı diqqətli davranması, təhsil müəssisələrində və ailələrdə profilaktik söhbətlərin aparılması risklərin azaldılmasına kömək edə bilər. Narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə bir neçə şəxsin saxlanılması və ya müəyyən miqdarda narkotik vasitənin müsadirə olunması ilə başa çatan proses deyil. Bu, cinayətkar şəbəkələrin maliyyə və təşkilati dayaqlarının zəiflədilməsini, yeni yayılma kanallarının qarşısının alınmasını və mümkün təhlükələrin vaxtında müəyyən edilməsini tələb edən davamlı fəaliyyətdir.

Narkotiklərin qanunsuz dövriyyəsi insan sağlamlığını, ailələrin rifahını və ictimai təhlükəsizliyi təhdid edir. Məhz buna görə də bu təhlükəyə qarşı mübarizədə hüquq-mühafizə orqanlarının ardıcıl fəaliyyəti, beynəlxalq əməkdaşlıq və cəmiyyətin fəal mövqeyi bir-birini tamamlamalıdır.

Aytən Tahirova

Əlyazma sahibini necə ələ verir?

Cinayətlərin araşdırılmasında xəttşünaslıq ekspertizasının rolu

Təsəvvür edək ki, polisə daxil olan anonim məktubda müəyyən şəxsə qarşı hədə-qorxu ifadələri yer alıb. Məktubda nə ad, nə də imza var. Göndərən kimliyini gizlətməyə çalışsa da, araşdırma zamanı diqqət yazının xüsusiyyətlərinə yönəlir. Çünki insanın illər ərzində formalaşan yazı vərdişləri onun kimliyinin müəyyənləşdirilməsində mühüm rol oynaya bilər. Hər kəsin yazı tərzi zamanla fərdi xüsusiyyətlər qazanır. Hərflərin forması, meyilliliyi və bir-biri ilə əlaqəsi insandan insana dəyişir. Bu xüsusiyyətlərin elmi üsullarla araşdırılması məhkəmə-xəttşünaslıq ekspertizasının əsasını təşkil edir.

Yazı vərdişləri necə formalaşır?

Əl ilə yazmaq mürəkkəb hərəkət vərdişlərinin nəticəsidir. İnsan qələmi hərəkət etdirərkən zamanla avtomatikləşmiş yazı üsullarından istifadə edir. Xəttşünaslıq ekspertləri yazının ölçüsünü, meyilliliyini, hərflərin quruluşunu, sətirlərin yerləşməsini və hərəkət xüsusiyyətlərini araşdırırlar. Məqsəd iki yazının zahiri oxşarlığını deyil, onlarda eyni şəxsə məxsus sabit fərdi əlamətlərin olub-olmadığını müəyyənləşdirməkdir. Bununla belə, bir insanın bütün yazıları eyni olmur. Tələsiklik, yorğunluq və yazı şəraiti əlyazmanın görünüşünə təsir göstərə bilər. Ekspertlər bu fərqləri də nəzərə alırlar.

Anonim məktubun müəllifinə aparan izlər

Cinayətlərin araşdırılmasında anonim məktublar və müəllifi məlum olmayan qeydlər mühüm əhəmiyyət daşıyır. Belə materiallar istintaqın istiqamətini müəyyənləşdirməyə kömək edə bilər. Məsələn, təhdid məktubunun mümkün müəlliflərinin yazı nümunələri əldə edilərək mübahisəli əlyazma ilə müqayisə olunur. Ekspert təkrarlanan fərdi əlamətləri və mövcud fərqlərin səbəblərini araşdırır. Çünki ayrı-ayrı şəxslər bəzi hərfləri oxşar yaza bilər. Buna görə nəticə çoxsaylı xüsusiyyətlərin birlikdə qiymətləndirilməsi əsasında formalaşır. Məktubun məzmunu və ifadə tərzi də araşdırıla bilər. Lakin yazının qrafik xüsusiyyətləri xəttşünaslıq, mətnin dil və üslub əlamətləri əsasında müəllifliyinin müəyyənləşdirilməsi



isə müəllifşünaslıq ekspertizasının predmetidir.

Yazı tərzini dəyişmək izləri gizlədirmi?

Bəzən şəxs tanınmamaq üçün yazı tərzini qəsdən dəyişir. Hərflərin formasını, ölçüsünü və meyilliliyini fərqli göstərməyə çalışır. Lakin yazının zahiri görünüşünün dəyişməsi bütün fərdi xüsusiyyətlərin itməsi demək deyil. Uzun müddətdə formalaşmış bəzi hərəkət vərdişləri dəyişdirilmiş yazıda da özünü göstərə bilər. Ekspertlər yazının axıcılığını, qeyri-adi hərəkətləri və fərdi əlamətləri təhlil edirlər. Bununla belə, qəsdən dəyişdirilmiş yazı hər zaman qəti nəticə əldə etməyə imkan vermir. Əlyazmanın həcmi və müqayisə nümunələrinin keyfiyyəti də mühüm rol oynayır. Bəzən ekspertə cəmi bir neçə sözdən ibarət qeyd təqdim olunur. Belə hallarda müəllifin müəyyənləşdirilməsi çətinləşir, çünki qısa mətn fərdi yazı xüsusiyyətlərini tam əks etdirməyə bilər. Müxtəlif vaxtlarda yazılmış etibarlı nümunələrin olması araşdırmanı asanlaşdırır. Zərurət yarandıqda şəxsdən eksperimental yazı nümunələri də alınır. Ekspert yalnız elmi əsaslarla təsdiqlənən qənaət bildirməlidir. Ayrı-ayrı əlamətlərin uyğunluğu yazının eyni şəxs tərəfindən icra edildiyini hər zaman qəti sübut etmir.

Xəttşünaslıq ekspertizası naməlum əlyazmanın müəllifinin müəyyənləşdirilməsinə, müxtəlif hadisələrdəki yazılar arasında mümkün əlaqənin üzə çıxarılmasına və istintaq versiyalarının yoxlanılmasına kömək edir. Ekspert rəyi digər sübutlarla birlikdə qiymətləndirilir və şəxsin təqsirini deyil, yazının kim tərəfindən icra olunduğunu elmi əsaslarla müəyyənləşdirməyə xidmət edir.

POLİS

REDAKTOR:
ANAR QAFAROV

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11454

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik